# Əbədiyaşar ideyalar

**Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, milli həmrəyliyi və bütövlüyü təmin edən, azərbaycançılıq ideologiyasının banisi, xalqımızın və dövlətimizin xilaskarı Ümummilli Lider Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısındakı tarixi xidmətləri misilsizdir.**

1991-ci il sentyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilən fövqəladə sessiyada deputatların və iclas zalının qarşısına toplaşan minlərlə insanın təkidi ilə Ulu Öndərin Ali Məclisin Sədri seçilməsi Azərbaycanın müstəqillik yolunun əsasını qoymuşdur.

"Bu zamanın, bu dəqiqələrin, bu saatın hökmünü nəzərə almaya bilməzdim... Xalqın bu əhval-ruhiyyəsini, tələblərini nəzərə alaraq bütün məsələləri götür-qoy etdim. Mən öz taleyimi xalqa tapşırmışam və xalqın iradəsini, yəqin ki, indi bu müddətdə, bu çətin dövrdə yerinə yetirməliyəm" deyən dahi liderin siyasi fəaliyyətində 1990-1993-cü illər mühüm yer tutur. Həmin dövr Ulu Öndər Heydər Əliyevin siyasi irsinin Naxçıvan dövrü kimi adlandırıla bilər. Məhz həmin illər onun böyük siyasətə, yenidən hakimiyyətə qayıdış dövrü oldu.



SSRİ-nin dayaqlarının sarsıldığı bir dövrdə keçmiş ittifaq miqyasında baş alan hərc-mərclik ölkələrin daxili həyatına da sirayət etmişdi və idarəetmə potensialı aşağı olan respublikalarda çox mürəkkəb siyasi-hüquqi kataklizmlər yaranmışdı. Naxçıvan Muxtar Respublikasının blokada şəraitində olması isə vəziyyəti olduqca mürəkkəbləşdirmişdi. Yalnız 1991-ci il sentyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilən Heydər Əliyevin gərgin fəaliyyəti və səyləri sayəsində muxtar respublikada sabitlik təmin edildi və sosial-iqtisadi vəziyyət yaxşılaşdırıldı. Ulu Öndər Naxçıvanı erməni təcavüzündən xilas edərək, blokada şəraitində gələcək inkişafın böyük təməllərini atdı. Onun rəhbərliyi ilə Naxçıvanda dövlət quruculuğu və idarəetmənin təkmilləşdirilməsi istiqamətində mühüm işlər görüldü.

Ulu Öndərin təşəbbüsü ilə Naxçıvanı Ermənistanın hərbi təcavüzündən qorumaq, əhalisinin təhlükəsizliyini təmin etmək məqsədilə Ali Məclisin 7 sentyabr 1991-ci il tarixli qərarı ilə Naxçıvanda Dövlət Milli Müdafiə Komitəsi yaradıldı. Bu qərar Naxçıvanın müdafiəsinin gücləndirilməsi istiqamətində atılan ilk addım oldu. 1992-ci ilin may ayı Azərbaycanın, o cümlədən Naxçıvanın müasir tarixinin ən mürəkkəb və gərgin dövrü idi. Bu dövrdə Bakıda siyasi qüvvələrin başı hakimiyyət mübarizəsinə qarışdığından ermənilər Azərbaycana qarşı hücumlarını genişləndirərək Şuşa və Laçın şəhərlərini ələ keçirmişdilər. Ermənilər yaranmış şəraitdən istifadə edərək Naxçıvanı ələ keçirmək üçün mayın ilk günündə muxtar respublikaya qarşı hərbi təcavüzə başladılar. Ulu Öndərin diplomatik fəallığı, dünya ictimaiyyətini ayağa qaldırması Ermənistanı geri çəkilməyə məcbur etdi.

Ulu Öndərin ölkə hakimiyyətinə yenidən qayıdışından sonra qısa müddət ərzində baş alıb gedən hərc-mərclik və anarxiya aradan qaldırıldı, qanunun aliliyi təmin edildi, hüquqi-demokratik prinsiplərə əsaslanan Konstitusiyamız qəbul edildi, vətəndaş həmrəyliyi bərpa olundu, iqtisadi tərəqqini şərtləndirən qlobal layihələr reallaşdırıldı.

Dahi şəxsiyyətin uzaqgörənliyini Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev uğurlu fəaliyyəti ilə təsdiqlədi. 44 gün davam edən hərbi əməliyyatlar çərçivəsində Azərbaycan Ordusu Ermənistanın 30 il ərzində Qarabağda qurduğu istehkamları darmadağın etdi, işğal altındakı torpaqları düşmən əsarətindən azad etdi. Noyabrın 8-də Azərbaycan xalqı heç zaman yaşamadığı sevinci və fəxarət hissini yaşadı, 28 illik həsrətdən sonra böyük əhəmiyyət kəsb edən və rəmzi məna daşıyan Şuşa şəhəri işğaldan azad edildi. Ali Baş Komandan İlham Əliyev "Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur" deyən Ulu Öndərin vəsiyyətini həyata keçirdi, xalqımıza böyük sevincini yaşatdı. 2023-cü il sentyabrın 19-da Azərbaycan Respublikasının konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə Qarabağda lokal xarakterli antiterror tədbirləri həyata keçirildi və Azərbaycan öz suverenliyini bərpa etdi. Həmin il 15 oktyabr tarixində Xankəndi şəhərinin mərkəzi meydanında Azərbaycan bayrağı qaldırıldı. Biz böyük Zəfəri qazandıq. Bu qələbə Azərbaycanın beynəlxalq mövqelərinin daha da möhkəmlənməsində, nüfuzunun yüksəlməsində böyük rol oynadı.

Bu gün bir daha böyük qürur hissi ilə deyirik ki, Ümummilli Liderin ideyalarının işığında sabaha böyük inamla addımlayan müasir, müstəqil, qalib Azərbaycanı qarşıda daha böyük uğurlar gözləyir.

**Kamran BAYRAMOV,**
***VI çağırış Milli Məclisin deputatı***

Azərbaycan.- 2024.- 3 sentyabr (№ 190).- S.7.